TÜRKİYƏ
nüvə enerjisində israrlıdır

Türkiyənin ilk Akkuyu Atom Elektrik Stansiyası Mersinin Gülnar rayonu yaxınlığında Rusiyaya məxsus "Rosatom" şirkəti tərəfindən tikilir və layihə hazırda 90 faiz tamamlanıb.

Elektrik stansiyası 4 reaktordan ibarətdir və hər reaktor 1200 MVt elektrik enerjisi istehsal gücünə malikdir. Bu, ümumi gücü 4800 MVt Türkiyənin elektrik ehtiyacının təxminən 10 faizini ödəyəcək enerji təchizatı potensialı təşkil edir.

Akkuyu AES-in ümumi dəyəri təxminən 20 milyard ABŞ dolları olduğu təxmin edilir. Bu dəyər də layihənin əslində uzunmüddətli investisiya olduğunu göstərir. Çünki atom elektrik stansiyalarının ömrü təxminən 60 ildir və 90 faizə qədər tutum əmsalı ilə ilboyu fasiləsiz enerji təmin edə bilir.

Bəs Türkiyə niyə belə yüksək xərcli uzunmüddətli investisiyada günəş elektrik stansiyaları əvəzinə nüvə enerjisini seçdi?

Günəş elektrik stansiyaları nüvə enerjisinə ekoloji cəhətdən təmiz alternativ kimi seçilsə də enerji sıxlığı və tutum amili baxımından fərqlənir. Akkuyu Atom Elektrik Stansiyasının təmin etdiyi 4800 MVt enerji miqdarına ekvivalent günəş enerjisi gücü üçün təxminən 24.000 MVt quraşdırılmış güc tələb olunur. Bu fərq günəş enerjisinin aşağı tutum əmsalı ilə bağlıdır, təxminən 20 faiz. Çünki sabit səmərəlilik əldə etmək həmişə mümkün olmur. 1 MVt-lıq günəş panelinin quraşdırılması üçün orta hesabla 1,5 hektar torpaq sahəsi tələb olunur. Buna görə də 24,000 MVt gücü üçün təxminən 36,000 hektar (360 km^2) ümumi sahənin ayrılması lazımdır.

Bu sahə Türkiyənin bir çox bölgəsinin səthindən daha böyükdür. Bunun üçün demək olar ki, İstanbulun bütün Anadolu yaxası qədər böyük bir sahə lazımdır. Üstəlik, bu ərazi bütünlüklə elektrik stansiyasına həsr edilsə belə, Türkiyənin ehtiyacının yalnız 10 faizini ödəyəcək. Digər tərəfdən, nüvə obyekti yalnız bir məhəlləni tutacaq. Bundan əlavə, günəş elektrik stansiyalarının dəyəri 1 MVt quraşdırılmış enerji üçün 700.000 ilə 1.000.000 dollar arasında dəyişir. Bu, 24.000 MVt gücündə günəş elektrik stansiyasının ümumi dəyərini təxminən 17-24 milyard dollara çatdırır. Deməli, o, nüvə stansiyasından heç də ucuz deyil. Günəş elektrik stansiyalarının istismar müddəti təxminən 25-30 ildir. Bu müddətin sonunda hətta ən yaxşı panellərin səmərəliliyi 70-80 faiz və ya daha aşağı səviyyələrə düşə bilər və yenilənmə ehtiyacı yaranır.

Təbii ki, dünyanın bir çox ölkələri, xüsusən də "Fukusima-1" faciəsindən sonra nüvə enerjisinə baxışlarını dəyişərək ekoloji və sosial təzyiqin təsiri altında "Energiewende" adlı enerji transformasiyası proqramına start verdilər.

Bir çox Avropa ölkələri öz atom elektrik stansiyalarını tədricən bağlamaq qərarına gəlsələr də bərpaolunan enerji mənbələrinə böyük sərmayələr yatırdılar. Bu gün Almaniyanın enerji ehtiyacının 40 faizi günəş və külək kimi bərpaolunan mənbələr hesabına ödənilir. Bununla belə, bu transformasiya enerji təchizatında bəzi disbalansa və təbii qaz kimi qalıq yanacaqlardan asılılığın artmasına səbəb olmuşdur.

Akkuyu Atom Elektrik Stansiyası az yer tələbatı və fasiləsiz enerji istehsalı ilə Türkiyə üçün etibarlı enerji mənbəyi hesab olunur. Digər tərəfdən, günəş enerjisi sərmayələri davam edir və bir çox insan bunu dəstəkləyir, çünki o, sıfır karbon emissiyası və ətraf mühitə daha az təsir göstərən ekoloji cəhətdən təmiz bir alternativdir. Bununla belə, qeyd etdiyimiz kimi, günəş enerjisi eyni enerji ehtiyacını ödəmək üçün daha böyük ərazilər və daha yüksək tutumlu quraşdırma tələb edir. Bu vəziyyət infrastruktur xərclərini artırsa da enerji təchizatına balanssızlıq riski də gətirir. Təbii ki, qarşıdakı dövrdə daha səmərəli panel texnologiyaları həyatımıza daxil olduqca bu məsələyə baxışlar da dəyişə bilər.

Xatırladaq ki, Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) nüvə enerjisini "atomun nüvəsindən ayrılan, proton və neytronlardan ibarət enerji" kimi təyin edir. Bu enerji iki şəkildə istehsal olunur. Birincisi parçalanma, yəni atom nüvələrinin parçalanmasıdır. İkincisi isə birləşmə, yəni nüvələrin birləşməsidir. Onu da qeyd edək ki, 2024-cü ildə Türkiyə günəş enerjisi istehsalında əhəmiyyətli artım əldə etdi və saatlıq pik tələb artımının üçdəikisini bu mənbədən qarşıladı. Günəş enerjisi ilin ən yüksək saatlıq elektrik tələbi zamanı Qərbi Anadolu vilayətlərində ümumi elektrik istehlakını qarşılamaq üçün kifayət qədər elektrik istehsal etdi.

Esmira YAZKAN ASLANOVA,
"Respublika" qəzetinin
Türkiyə üzrə müxbiri.